# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

SOSİAL-SİYASİ
*elmlər seriyası*

*серия*
СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК

*series of*
SOCIAL-POLITICAL SCIENCES

№ 3, 2025

**Bakı – 2025**

*Baş redaksiya heyəti:*

**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N.**, **Məmmədov Y.Ə.**, **Əliyev İ.Ə.**, **Paşayeva N.A.**, **Rəcəbov M.R.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*

**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N.**, **Əhmədov Ə.C.**, **Əliyev B.H.**, **Əlizadə H.Ə.**, **İsmayılov R.R.**, **Məhərrəmov A.M.**, **Qasımov A.M.**, **Məmmədov R.F.**, **Rüstəmov İ.Ə.**, **Əliyev Ə.İ.**, **Həsənalıyev Z.M.**, **Əliyeva K.R.**

***© Bakı Dövlət Universiteti, 2025***

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3* *Sosial-siyasi elmlər seriyası* *2025*

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ – DÖVLƏTLƏRİN BEYNƏLXALQ HÜQUQİ ÖHDƏLİKLƏRİNİN ZƏRURİ ŞƏRTİ KİMİ: YUMŞAQ HÜQUQDAN (SOFT LAW) BƏRK HÜQUQA (HARD LAW) DOĞRU İNKİŞAF

**R.K.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***rahim_bdu@mail.ru***

*Tədqiqatın əsas məqsədini tövsiyə xarakterli normaları (soft law), beynəlxalq müqavilələri, beynəlxalq hüququn ümumtanınmış prinsiplərini və normalarını, hüquqi standartları, beynəlxalq təşkilatların hüquqi aktlarını, beynəlxalq konfransların aktlarını, beynəlxalq öhdəliklər doğuran birtərfli aktları kompleks şəkildə təhlil etməklə ətraf mühitin mühafizəsi sahəsində dövlətlərin beynəlxalq hüquqi öhdəliklərinin zəruri şərti və tələbi kimi çıxış edən hüquqi məsuliyyət institutunun mahiyyətini və əhəmiyyətini açıqlamaqdan ibarətdir.*

*Məqalədə qeyd olunur ki, ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi insanın yaşamaq hüququ və onun sağlamlığı ilə birbaşa əlaqəyə malikdir. Başqa sözlə ifadə etsək, ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi prinsip etibarı ilə elə insanın həyat və sağlamlığının qorunması deməkdir. Bu qarşılıqlı vəhdətin və asılılığın təmin edilməsi isə beynəlxalq birliyin prioritet vəzifəsi olmalıdır. Ətraf mühitin mühafizəsinin zərurliyinə antroposentrik, yəni insan və təbiətin qarşılıqlı münasibətlərində insanın rolunun mütləqləşdirilməsi nöqteyi-nəzərindən deyil, biosentrik və ekosentrik sintezdən yanaşılmalıdır. Bu qarşılıqlı əlaqə və asılılıq hüquqi məsuliyyət rejiminin müəyyənləşdirilməsini də tələb edir. Ətraf mühitə qarşı törədilən hüquq pozuntularına görə məsuliyyət prinsip etibarı ilə: beynəlxalq öhdəliklərə əməl olunmaması nöqteyi-nəzərindən beynəlxalq hüquqi, təqsirin formaları nəzərə alınmaqla cinayət hüquqi, vurduğu zərərin həcmi və xarakterinə görə mülki hüquqi məsuliyyət doğurur.*

*Ətraf mühitin mühafizəsi üzrə hüquqi məsuliyyət rejiminin vacibliyini şərtləndirən beynəlxalq normaların implementasiya prosesi hal-hazırda aşağıdakı problemlərlə müşayiət olunur: a) bu sahədə beynəlxalq normaların çoxluğu, müxtəlifliyi və intensiv dinamikası; b) implementasiyanın optimal üsullarını seçmək; c) implementasiya prosesində hüquq və siyasət arasında balansı təmin etmək.*

**Açar sözlər:** ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizlik, əlverişli ətraf mühit hüququ, beynəlxalq ekoloji siyasət konsepsiyası, beynəlxalq hüquq, dayanaqlı inkişaf məqsədləri, beynəlxalq hüquqi məsuliyyət, Ətraf mühitin problemlərinə dair 1972-ci il Stokholm Bəyənnaməsi, 1992-ci il İqlim dəyişilmələri üzrə Çərçivə Konvensiyası, cinayət məsuliyyəti, mülki-hüquqi məsuliyyət, təcavüz, ekoloji standartlar.

**https://doi.org/10.30546/209300.305.2025.3.010**

# I. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ EKOLOJİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQİ ƏMƏKDAŞLIĞIN YARANMASINA STİMUL VERƏN SƏBƏBLƏR

XXI əsrin üzləşdiyi və eyni zamanda dövlətlərin beynəlxalq hüquqi əməkdaşlığını zəruri edən ən ciddi qlobal problemlərindən biri də ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin olunmasıdır. Bu problemin yaranmasına stimul verən səbəblərin böyük əksəriyyəti insan fəaliyyəti ilə şərtləşir və nəticədə ətraf mühit zərərli təsirlərin hədəfinə çevrilir. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə əsasən *ətraf mühitə zərərli təsir* dedikdə – ekoloji sistemin ayrı-ayrı komponentlərinin kəmiyyət və keyfiyyət dəyişməsinə, ekoloji tarazlığın pozulmasına səbəb olan kimyəvi və bioloji, zərərli fiziki, texniki, dağ-mədən işlərində texnologiyanın pozulması, təbii resurslardan israfçılıqla istifadə edilməsi ilə müşayiət olunan vəziyyət başa düşülür (8). Ətraf mühitə zərərli təsir edən hallar sırasına silahlı münaqişələri də daxil etsək, ekoloji təhlükəsizliyin təmin olunması sahəsində bəşəriyyətin üzləşmiş olduğu problemlərin nə qədər mürəkkəb və çətin olduğunun şahidi ola bilərik.

İnsanla təbiətin qarşılıqlı əlaqəsi qədim dövrlərdən başlamış, lakin elmi-texniki tərəqqinin dinamik inkişafına yönəlik iqtisadi fəaliyyətin daimi kəmiyyət və keyfiyyət artımı insan cəmiyyətinin ətraf mühitə təsirini daha da sürətləndirmişdir. Məhz insanların antropogen fəaliyyəti nəticəsində bir çox bitki və heyvan növləri yoxolma təhlükəsi ilə üzləşmiş, Dünya okeanı neft və d. tullantılarla genişmiqyaslı çirklənməyə məruz qalmış, Yerin ozon təbəqəsi məhv edilmiş, Amazonda və başqa münbit coğrafi ərazilərdə vəhşi tropik meşələrin kütləvi şəkildə qırılması həyata keçirilmiş, qlobal istiləşmənin səbəbi olaraq Antarktidada buz örtüyünün sürətlə əriməsi baş vermiş və sonda bu kimi d. antropogen hallar ekoloji tarazlığın pozulmasına, bioloji müxtəlifliyin sürətlə məhv edilməsinə, ərazilərin səhralaşmasına, ciddi xəstəliklərin meydana gəlməsinə zəmin yaratmış və beləliklə də insan öz əməli ilə özünün həyat və sağlamlığını təhlükə altına salmışdır.

Bundan başqa, siahlı münaqişə və ya hərbi işğal zamanı təbii sərvətlərin talanması, floranın (meşələrin və d. bitki örtüyünün geniş miqyaslı qırılması), faunanın məhv edilməsi, hətta süni böhranların yaradılması yolu ilə ətraf mühitə qəsdən ziyan vurulur (25. 623). Yuqoslaviya hadisələri zamanı NATO-ya məxsus hava qüvvələri tərfindən həmin ölkənin ərazisində mülki obyektlərlə yanaşı, Luçanada *Milan Blagoeviç* kimya kompleksinin, Smederovo, Priştin və Somboredə *Yugopetrol,* Belqrad, Kralevo, Priştində *Beopetrol,* Somboredə *Naftagas* neft anbarlarının, Pançevoda neft-kimaya və kimya zavodlarının, Novi Sad şəhərində neftayırma kompleksinin bombalaması

ölkənin neft-sənaye potensialının 70 %-ə qədər məhv edilməsi ilə nəticələnmişdir. Sənaye obyektlərinin dağıdılması və yanğınlar nəticəsində yalnız Yuqoslaviyada deyil, həm də qonşu ölkələrin ərazisində atmosferin, suyun və torpağın dioksinlər, kükürd və azot birləşmələri kimi xüsusi zəhərli maddələrlə çirklənməsi qeydə alınmışdır. Atmosferə atılan zəhərli maddələrin, xüsusən dioksinlərin kanserogen birləşmələrinin küləklə uzun məsafələrə daşınması nəticəsində təkcə 1999-cu ilin aprel ayında Şimali Yunanıstan üzərində havada dioksin səviyyəsi normanı 10 dəfə, may ayında isə 15 dəfə aşmışdır (27. 237).

Ermənistanın otuz ilə yaxın davam edən işğalı dövründə də ölkəmizin ekoloji təhlükəsizliyinə, ümumilikdə isə regionun ekosisteminə ciddi zərər vurulmuşdur. İşğalın nəticəsi olaraq həyati əhəmiyyətli təbiət obyektləri, xüsusən şirin su hövzələri, çaylar, münbit və məhsuldar ərazilər, meşə massivləri, məsələn, Zəngilan rayonunda və işğal altında olmuş d. ətraf rayonlarda dünya miqyasında nadir təbiət obyektləri sırasına daxil olan məşhur "Xan çinar" ağacları qəsdən məhv edilmiş, beləliklə də Azərbaycanın ekologiyası məhv olmaq təhlükəsi ilə üzləşmişdir. Təcavüzkar Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi məqsədli "*ekoloji təcavüz*" siyasətinin beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə və normalarına zidd olması Avropa Şurası Parlament Assambleyasının *"Azərbaycanın cəbhəyanı bölgələrinin sakinlərinin sudan qəsdən məhrum edilməsi"* haqqında 26 yanvar 2016-cı il tarixli 2085 saylı Qətnaməsində (44) öz təsdiqini tapıb. Qətnamədə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisində yerləşən Sərsəng su anbarının cari vəziyyətinin yeni humanitar böhran yarada bilməsi ehtimalı qeyd olunmuş və Ermənistan hakimiyyətindən su ehtiyatlarından "*siyasi təsir aləti və ya təzyiq vasitəsi kimi istifadəni dayandırması*" tələb edilmişdir. Bundan başqa, süzügedən Qətnamədə Ermənistanın Dağlıq Qarabağı və Azərbaycan Respublikasının bitişik rayonlarını işğal etməsi faktının *"Aşağı Qarabağ vadisində yaşayan Azərbaycan vətəndaşları üçün də analoji humanitar və ekoloji problemlər"* yaratmasına dair narahatlıq ifadə edilir. 2085 saylı Qətnamədə Beynəlxalq çayların suyundan istifadə haqqında 1966-cı il Helsinki və 2004-cü il Berlin Qaydalarına istinad edilməklə, sudan istifadə hüququnun əhəmiyyəti və dövlətlərin bu hüququ təmin etmək öhdəliyi yurğulanır.

Ermənistan Azərbaycana qarşı məqsədli transsərhəd ekoloji zərər siyasətini özünün ərazisi vasitəsilə də həyata keçirib və bu qanunsuz fəaliyyət əfsuslar olsun ki, indinin özündə də davam edir. Araz çayının və onun qolu Oxçuçayın sahilyanı və dib çöküntüləri dağ-mədən sənayesinin tullantıları, xüsusilə kimyəvi və radiasiyalı tullantılarla məqsədli şəkildə çirkləndirilir ki, bu da BMT-nin *Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında* 1991-ci il, *Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında* 1992-ci il Konvensiyalarının, eləcə

də 1992-ci il Konvensiyaya edilən 1999-cu il tarixli *Su və sağlamlıq haqqında* Protokoldan irəli gələn öhdəliklərin kobud şəkildə pozulmasıdır.

Dünyanın hansı coğrafi regionunda baş verməsindən və törədilməsindən asılı olmayaraq ətraf mühitin qəsdən və məqsədli şəkildə deqradasiyasına və məhvinə yönəlik istənilən insan fəaliyyəti həm konkret ərazidə yerləşən dövlətin, həm region dövlətlərinin, bütövlükdə isə dövlətlərarası sistemin ekoloji təhlükəsizliyinə qarşı yönələn təhlükə kimi nəzərdən keçirilməlidir. Ona görə ki, ətraf mühitə qarşı edilən qəsd ətraf mühitlə insanın qarşılıqlı bağlılığına ciddi zərər vurur və son nəticədə həm bizi əhatə edən təbiətin sabit durumu, həm də insanın həyat və sağlamlığı üçün real təhlükələr yaranır. Odur ki, beynəlxalq birliyin əsas hərəkətverici aktoru hesab olunan dövlətlər qlobal miqyasda ətraf mühitin mühifizəsi və ekoloji təhlükəsizliyin təmin olunmasının təkmil siyasi, hüquqi, iqtisadi, humanitar, texniki, elmi-nəzəri və konseptual əsaslarının işlənib hazırlanmasında, təkmilləşdirilməsində və bu hədəflərin real şəkildə həyata keçirilməsində maraqlı olmalıdırlar. Bir haldakı söhbət müasir dövrün ən ciddi qlobal problemi` hesab olunan ekoloji tarazlığın və ekoloji təhlükəsizliyin təmin olunmasından gedir.

Qeyd olunan fikirlərin yekunu olaraq belə bir nəticəyə gələ bilərik ki, hal-hazırda üzləşmiş olduğumuz ekoloji problemlər əslində bəşəriyyətin yaranması və mövcud olmasından bizi addım-addım təqib edən problemdir. Bu problemin həll edilməsinin xüsusi əhəmiyyəti onunla izah olunur ki, hazırda insanın antopogen fəaliyyəti nəticəsində qlobal iqtisadi-ekoloji sistemin deqradasiyası geniş miqyas almışdır. Təbii resurslardan qeyri-rasional istifadə, su və mineral xammal ehtiyatlarının azalması və tükənməsi, münbit və məhsuldar torpaqların eroziyası, səhralaşma, tropik meşələrin qırılması, havanın tempraturunun artması, ozon qatının deşilməsi, sənaye tullantılarının tələb olunan səviyyədə idarə olunmaması, biomüxtəlifliyi, meşələrin, flora və faunanın lazımi səviyyədə qorunmaması və d. kəskin iqlim dəyişiklikləri qlobal ekoloji problemlər hesab olunur. Bu antropogen təsirlər sözün həqiqi mənasında ətraf mühitin, təbii sərvətlərin, biosferin, ekosistemlərin, flora və faunanın normal ahəngini tamamilə pozmuş və çox ciddi ekoloji disbalansa səbəb olmuşdur. Odur ki, elmi ədəbiyyatda ətraf mühitin mühafizəsi problemlərinə qlobal səviyyədə münasibət ən optimal yanaşma üsulu kimi qəbul edilir, baxmayaraq ki, ətraf mühitin mühafizəsi ölkə və regional səviyyədə də həyata keçirilir. Qlobal yanaşma konsepsiyasının tərəfdarları öz arqumentlərini o faktlarla əsaslandırırlar ki, atmosfer, dünya okeanı ümumbəşəri sərvətlərdir və buna görə də bu sərvətlərin mühafizəsi, ekoloji tarazlığın və ekoloji təhlükəsizliyin təmin edilməsi yalnız dövlətlərin əməkdaşlığı müstəvisində həll oluna bilər (13.10-11; 28. 658-659).

Eyni zamanda, insanın ətraf mühitə bağlılığı və münasibəti dərk olunan davranış forması kimi onun şüurunda, mədəniyyətində, gündəlik həyat

tərzində maddiləşməli və ekoloji mədəniyyətə çevrilməlidir. XXI əsrdə elmi-texniki tərəqqinin sürətli və dinamik inkişafı, İKT, İnternet, robot, nanotexnologiyanın insan həyatının bütün sferalarına inteqrasiyası cəmiyyətin şüurunda təbiətə, onun sərvətlərinə, floraya, faunaya yaradıcı münasibətin formalaşmasını tələb edir. Yəni, insanlarda mədəniyyətin, sivilizasiyanın yeni növü - *ekoloji mədəniyyət* formalaşmalıdır, əks təqdirdə insanların təbiətə olan neqativ münasibəti heç vaxt dəyişməyəcəkdir (14. 651-652).

## II. BEYNƏLXALQ EKOLOJİ SİYASƏT KONSEPSİYASI VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

Yuxarıda qeyd olunduğu kimi ətraf mühitin mühafizəsi problemlərinə qlobal səviyyədə münasibət ən optimal yanaşma üsulu kimi qəbul edilir. Bu isə dövlətlərdən və beynəlxalq təşkilatlardan zəruri hüquqi və təşkilati xarakterli tədbirlərin görülməsini tələb edir. Müasir dövrün qlobal problemlərindən biri olaraq ətraf mühitin mühafizəsi mahiyyət etibatılə siyasi, hüquqi, sosial-iqtisadi və humanitar əhəmiyyət kəsb edir. Yəni ətraf mühitin mühafizəsi ilə bağlı meydana çıxan problemlərin əhatəli tənzimlənməsi siyasi, hüquqi, sosial-iqtisadi, humanitar, elmi-texniki xarakterli kompleks tədbirlər sisteminin mövcudluğundan asılıdır. Bu tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsi isə suveren dövlətlərin siyasi iradəsindən, qarşılıqlı güzəştlərindən, milli maraqların vahid beynəlxalq maraqla uzlaşdırılmasından, son nəticədə nəinki dövlətlər üçün, həm də fiziki və hüquqi şəxslər üçün əməl olunması məcburi olan beynəlxalq hüquq normalarının yaradılmasından asılıdır.

Ətraf mühitin mühafizəsi sahəsində meydana çıxan problemlərin həllinə yönəlik beynəlxalq əməkdaşlığın təşəkkül tapması və inkişafı heç də informasiya əsri adlandırdığmız XXI əsrin məhsulu deyil. Elmi araşdırmalarda haqlı olaraq vurğulandığı kimi sənaye fəaliyyətinin ətraf mühitə təsiri XIX əsrin sonlarından artaraq şəhərlərdə havanın kirliliyinin artmasına, axarsu və çayların çirklənməsinə, sahil ərazilərinin zərər görməsinə səbəb olmuşdur (18. 85). XX əsrin 60-cı illərinin sonuna qədər təbii resursların istifadəsindən ətraf mühitə dəyən zərər beynəlxalq səviyyədə siyasi və hüquqi diqqət tələb edən ekoloji problemlərin beynəlxalq kateqoriyasının nümunəsi kimi deyil, daha çox konkret dövlətin yurisdiksiyasına daxil olan lokal problem kimi qəbul edilmişdi. Lakin ətraf mühitin mühafizəsi isə ona zərər vuran mövcud səbəblərə nəzarət etmək, onun fəsadlarını azaltmaq, aradan qaldırmaq, əlavə zərər növlərinin qarşısını almaq və təbii ehtiyatlardan rasional istifadə etmək (42. 450) zərurəti praktikada uzun müddət mövcud olmuş paradiqmanın kökündən dəyişməsini və mahiyyət baxımından yeni yanaşmanı tələb etmiş oldu. Odur ki, XX əsrin 70-ci illərdən etibarən, xüsusən elmi-texniki tərəqqinin dinamik inkişafı fonunda insanın ətraf mühitə antropogen təsirinin artma-

sı və onun neqativ nəticələrinin qarşısının alınması məqsədi ilə bu sahədə dövlətlər arasında əməkdaşlığa zəmin yaradan *beynəlxalq ekoloji siyasət konsepsiyasının* ümumi-hüquqi əsaslarının təməli qoyuldu, sonda isə müasir beynəlxalq hüququn yeni sahəsi kimi beynəlxalq ekologiya hüququ (BEH) formalaşdı. Bunun ardınca isə ətraf mühitin mühafizəsi məsələlərinə beynəlxalq ekologiya hüququ ilə yanaşı bu və ya digər dərəcədə beynəlxalq hüququn başqa sahələri: beynəlxalq təhlükəsizlik hüququ, beynəlxalq insan hüquqları hüququ, beynəlxalq humanitar hüquq, beynəlxalq cinayət hüququ müstəvisindən də münasibət sərgiləndi.

Nəinki ekoloji, istənilən beynəlxalq reaksiya tələb edən məsələnin və ya problemin beynəlxalq hüquqi tənzimləmə müstəvisinə çıxarılmasında *daxili və xarici siyasət maraqları, siyasi iradə* kimi faktorlar həmişə mühüm rol oynayıb və indinin özündə də o, öz aktuallığını qoruyub saxlamaqda davam edir. Ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi zərurəti bu sahədə dövlətlər arasında əməkdaşlığa zəmin yaradan *beynəlxalq ekoloji siyasət konsepsiyasının* süzgəcindən keçib desək, - təbii ki, yanılmarıq. Artıq XX əsrin 70-ci illərindən başlayaraq dövlət və hökumət başçıları, siyasətçilər, hüquqşünaslar, diplomatlar, ekoloqlar ətraf mühitin qorunması və onun ehtiyatlarının məqsədəuyğun istifadə olunmasının müasir dövrün qlobal problemlərindən biri olduğunu, ətraf mühitin mühafizəsinə həsr olunan milli qanunların kifayət qədər səmərəli olmadığını dilə gətirərək bu problemin həlli məqsədi ilə məcburi qüvvəyə malik beynəlxalq hüquq normalarının yaradılmasının da dövlətlərin siyasi iradə nümayiş etdirmələrinin nə qədər vacib və əhəmiyyətli olduğunu etiraf edirdilər. Beləliklə də, dövlətlər ekoloji problemlərin gündən-günə artan təhlükəsinin, onun fəsadlarının qarşısını almaq məqsədilə *beynəlxalq ekoloji siyasət konsepsiyasının* ümumi-hüquqi əsası olan yumşaq hüquq *(soft law)* normalarının yaradılmasına yönəlik ilk addımlar atmağa başladılar. Məhz bu tarixdən etibarən ətraf mühitin mühafizəsi problemi siyasətçilərin diqqət mərkəzinə düşdü, bunun ardınca eko-siyasi tədqiqatlar meydana gəldi və ekoloji hərəkatların qaçılmaz formalaşması və tədricən siyasiləşməsi müşahidə edildi (32. 181). Yəni ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizliyin və ekoloji tarazlığın qorunub saxlanılması zərurəti dövlətlərin daxili və xarici siyasət süzgəcindən keçərək hüquqda maddiləşmə prosesinə yön almış oldu. Bəzi tədqiqatçıların düzgün olaraq vurğuladığı kimi əgər təbiət siyasətdən əziyyət çəkirsə, bu o deməkdir ki, siyasət qeyri-adekvatdır və onun gələcəyi yoxdur (24. 245).

Ətraf mühitin mühafizəsi probleminə siyasət və beynəlxalq hüququn qarşılıqlı münasibətləri kontekstindən yanaşma obyektiv reallıq kimi qəbul edilməlidir. Ona görə ki, beynəlxalq hüququn tənzimləmə obyektinə daxil olan istənilən beynəlxalq hüquq norması, istənilən beynəlxalq hüquqi akt təkcə hüquqi deyil, həm də siyasi xarakterə malikdir və onlardan yaranan müna-

sibətlər də eyni zamanda siyasi və hüquqidir (3.43-44). Bu gün də dünya siyasətçiləri, siyasi mərkəzlər, beynəlxalq təşkilatlar yaxşı başa düşürlər ki, ekologiya sferasında qlobal idarəçiliyin əsas açarı beynəlxalq hüquqi bazaya söykənir və söykənməlidir. Məhz beynəlxalq hüquqi bazanın vasitəsilə beynəlxalq ekoloji siyasətin konturları, onun strateji məqsəd və vəzifələri işlənib hazırlanır və həyata keçirilir. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, BMT-nin Ətraf mühit və inkişaf üzrə Komissiyasının "*Bizim ümumi gələcəyimiz"* hesabatında (Brundtland komissiyası, 1987 ci il), BMT-nin Ətraf mühit üzrə Konfransının (1992) Rio-de Janeyro konfranslarının: "*Rio Bəyənnaməsi","XXI əsrin gündəliyi","RİO+20"(2012),"Bizim istədiyimiz gələcək"* və inkişaf sahəsində Gündəliklərin qəbulu üzrə BMT-nin 2015-ci il tarixli Sammitinin sənədlərində dövlətləri iqtisadi, sosial və ekoloji dəyərlərin prioritetləri nəzərə alınmaqla, davamlı inkişaf konsepsiyasına əməl etməyə və müvafiq işlər görməyə çağırır.

BMT-in 2015-ci ildə keçirilən Sammitində də 17 istiqamət üzrə 2030-cu ilədək "*Dayanaqlı inkişafın məqsədləri*" təsdiq edilmişdir (31). Bu səndə Azərbaycan Respublikası (AR) da daxil olmaqla BMT-nin bütün üzv-dövlətləri tərəfindən qəbul edilmişdir. Sənəddə: hər yerdə bütün formalarda yoxsulluğa son qoymaq; aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və qidalanmaya nail olmaq və kənd təsərrüfatının davamlı inkişafına kömək etmək; hər yaşda hər kəs üçün sağlam həyatın təmin edilməsi və rifahın təşviq edilməsi; hamı üçün sanitariya və su resurslarının mövcudluğunu və davamlı idarə olunmasını təmin etmək; iqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə üçün təcili tədbirlərin görülməsi; davamlı inkişaf naminə okeanların, dənizlərin və dəniz ehtiyatlarının qorunması və rasional istifadəsi; yerin ekosisteminin bərpa edilməsi, müdafiəsi və onların səmərəli istifadəsinə dəstək vermək, meşələri rasional şəkildə idarə etmək, səhralaşma ilə mübarizə aparmaq, torpaqların deqradasiyasını dayandırmaq və geri qaytarmaq və biomüxtəlifliyin itməsi prosesini dayandırmaq və sadalamadığımız d. məsələlər davamlı inkişaf konsepsiyasının hədəfləri kimi müəyyən edilmiş və dövlətlər bu məqsədlərin həyata keçirilməsinə görə öz üzərlərinə müvafiq öhdəliklər götürmüşdür. Qeyd olunanlardan aydın olur ki, dayanaqlı inkişaf konsepsiyasının əsasında bir-biri ilə qırılmaz vəhdət təşkil edən üç element durur: a) iqtisadi, b) sosial; c) ekologiya.

Ətraf mühitin qorunması və qlobal ekoloji problemlərin qarşısının alınması və həlli ilə bağlı meydana çıxan münasibətlərin nizamlanması daha çox beynəlxalq hüququn ciddi hüquqi tənzimləmə tələb edən bərk normalarına (*hard law)* əsaslanmalıdır. Daha dəqiq ifadə etsək, ətraf mühitin mühafizəsi sahəsində formalaşmış yumşaq hüququn *(soft law)* ciddi hüquqi müəyyənliyə, yəni bərk hüquqa keçidi qlobal reallıq kimi qəbul edilməlidir. Əvvəldə də vurğulandığı kimi, müxtəlif xarakterli ekoloji tələblər ilk əvvəl tövsiyə kimi qətnamələrdə, bəyənnamələrdə, proqramlarda, hüquqi standartlarda və s. əks

olunsa da, lakin müəyyən müddət keçdikdən sonra isə həmin “*ekoloji standartlar”*ın bəziləri ya müqavilə qaydasında, ya da beynəlxalq hüquqi adət şəklində məcburi hüquq norması kimi tətbiq olunmuş və tanınmışdır. Odur ki, beynəlxalq hüquq ədəbiyyatında (BEH normativ sisteminin formalaşmasına və inkişafına böyük töhfə vermiş 1972-ci il Stokholm, 1992-ci il Rio-de Janeyro Bəyənnamələrinin, 1982-ci il Ümumdünya təbiəti mühafizə Xartiyasının, 1987-ci il Brundtland komissiyasının hesabatının rolu xüsusi qeyd olunur (11. 279; 10. 735).

Professor Lətif Hüseynovun haqlı olaraq vurğuladığı kimi beynəlxalq ekoloji standartların ən yaxşı və ən səmərəli forması beynəlxalq müqavilələrdir (11. 277) və o müqavilələr ki, hal-hazırda müasir BEH normativ sistemində aparıcı rola malikdirlər. Bu müqavilələr subyekt tərkibinə görə ikitərəfli, regional və universal sazişlər olmaqla, ətraf mühitin qorunmasının ümumi məqsədlərinə və ayrı-ayrı ekoloji sistemlərin – dəniz mühitinin, atmosferin, kosmik fəzanın mühafizəsinə həsr olunub. Lakin indinin özünə kimi bu sahədə bütün ekoloji məsələlərin hüquqi tənzimlənməsini əhatə edə biləcək vahid məcəlləşdirilmiş aktın qəbuluna nail olunmamışdır. Hesab edirik ki, buna mane olan səbəblər qismində ətraf mühitin tənzimlənməsinə dair bir sıra məsələlərin beynəlxalq hüququn digər sahələri ilə birbaşa bağlı olması, bəzi dövlətlərin isə özlərinin iqtisadi, siyasi və geopolitik maraqlarını nəzərə alaraq vahid məcəlləşdirmədə maraqlı olmamalarıdır. Bununla belə, beynəlxalq hüquq müstəvisində ətraf mühitin mühafizəsinə dair universal və regional səviyyədə çoxsaylı müqavilələr mövcuddur.

Beynəlxalq hüquq ədəbiyyatında ətraf mühitin çirklənmədən qorunması və təbii ehtiyatların rasional istifadəsi ilə bağlı dövlətlərarası münasibətləri tənzim edən BEH (bəzi hüquq ədəbiyyatında “ətraf mühitin beynəlxalq hüququnun”) təşəkkül tapması və inkişafının şərti olaraq dörd mərhələdən keçdiyi qeyd olunur (29.71-73; 18.87-91).

Birinci mərhələ XX əsrin 50-ci illərinin başlanğıcına qədər olan dövrü əhatə edir. Bu, o dövrdür ki, artıq müəyyən beynəlxalq müqavilələrdə, məsələn: Böyük Britaniya və Fransa sahillərində dəniz ilbizi yığımı və balıqçılıq haqqında 1839-cu il, Reyn çayında gəmiçilik haqqında 1868-ci il, Kənd təsərrüfatı üçün faydalı olan quşların mühafizəsi haqqında 1902-ci il, Flora və faunanın təbii vəziyyətinin qorunması haqqında 1933-cü il, Vəhşi təbiətin mühafizəsi üzrə 1940-cı il Konvensiyalarında təbiəti mühafizəyə dair spesifik münasibətlərin hüquqi tənzimlənməsi təşəkkül tapmağa başlamışdı.

İkinci mərhələ XX əsrin 50-70-ci illərini əhatə edən və sonda BEH təşəkkül tapması və inkişaf dövrüdür. Bu mərhələdə istər unuversal, istərsə də regional səviyyədə ətraf mühitin mühafizəsinə dair meydana çıxan münasibətlərin geniş və kompleks şəkildə hüquqi tənzimlənməsinin əsası qoyulmuş və çoxsaylı beynəlxalq konvensiyalar, məsələn: Dənizin tullantılarla və

digər materiallarla çirklənməsinin qarşısının alınması haqqında 1972-ci il, Vəhşi fauna və floranın yox olmaq təhlükəsində olan növləri ilə beynəlxalq ticarət haqqında 1973-cü il Konvensiyaları və d. qəbul edilmişdir. Əvvəldə vurğulandığı kimi məhz bu zaman kəsiyində ətraf mühitin mühafizəsi məsələləri ciddi siyasi, hüquqi, iqtisadi problem kimi dövlətlərin, beynəlxalq təşkilatların (EKOSOK, YUNESKO, ÜST, YUNEP və b.) və qeyri-beynəlxalq təşkilatların maraq sferasına düşmüşdür.

Keçən əsrin 70-90-cı illərini əhatə edən üçüncü mərhələ ekoloji problemlərin qlobal səviyyəli problem olduğunu və bunun üçün dövlətlərin birgə səylərinin daha da artırılmasının vacibliyini bəyan edən dövrdür. BEH məhz bu mərhələdə ətraf mühitin mühafizəsi ilə bağlı dövlətlərin daxili siyasətinə, milli qanunvericiliyinə ciddi təsir edərək bu sahədə mövcud problemlərin həllinə yönəlik hüquqi, təşkilati və mühafizə xarakterli islahatların, proqramların qəbul olunmasına və həyata keçirilməsinə zəmin yaratmışdır. Məsələn, AR ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin olunması sahəsində üzərinə götürdüyü beynəlxalq öhdəlikləri nəzərə alaraq: Ətraf mühitin mühafizəsi haqqında, Ekoloji təhlükəsizlik haqqında, Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Qanunlar qəbul edib və müvafiq proqramlar işləyib hazırlayıb və həyata keçirib. Buna nümunə olaraq 2003-2010-cu illəri əhatə edəm AR ekoloji cəhətdən dayanaqlı sosial-iqtisadi inkişafa dair Milli Proqramı, AR ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planını, AR bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiyanı, AR meşələrin mühafizəsi və davamlı inkişafa dair 2022-2030-cu illər üçün Dövlət Proqramını, Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiyanı və d. qeyd edə bilərik.

BEH inkişafının dördüncü mərhələsi XX əsrin 90-cı illərindən indiki dövrə olan zamanı əhatə edir. Bu dövrdə ətraf mühitin mühafizəsi problemlərinə *dayanaqlı inkişaf* və *ekoloji təhlükəsizlik* konsepsiyalarının qarşılıqlı münasibəti kontekstindən yanaşma sərgilənir. 1992-ci ildə Rio-de Janeyroda BMT-nin ətraf mühit və inkişaf üzrə Konfransında dayanaqlı inkişaf Konsepsiyası məhz bu məqsədlə qəbul edilib (45).

Rio-de Janeyro Konfransının BEH inkişafına verdiyi ən mühüm töhfə İqlim dəyişilmələri üzrə Çərçivə Konvensiyasının qəbuludur (1992). 154 dövlətin imzaladığı və 1994-cü ildən qüvvəyə mindiyi bu Konvensiya "Yerin iqlim sisteminə təhlükəli antropogen müdaxilənin qarşısının alınması" məqsədilə istixana qazlarının atmosferdəki konsentrasiyalarını azaltmağı dövlətlərin üzərinə öhdəlik kimi qoyan ilk beynəlxalq müqavilədir (46). Həmin Müqaviləyə 1997-ci ildə Kyoto Protokolu əlavə edilib (4). Protokolun məqsədi qlobal istiləşməyə səbəb olan istixana qazlarının atmosferə tullantılarını məhdudlaşdırmaq və ixtisar edilməsi üzrə müəyyən say öhdəliklərini yerinə

yetirdiyi müddətdə stabil inkişafa nail olmaqdır. 12 dekabr 2015-ci ildə İqlim dəyişilmələri üzrə Çərçivə Konvensiyasının üzv dövlətlərinin XXI konfransında Paris Razılaşması qəbul olunub (5). Paris Sazişi İqlim dəyişilmələri haqqında Çərçivə Konvensiyasına əsasən 2020-ci ildən atmosferdəki karbon dioksidin azaldılmasına dair tədbirləri tənzimləyən bir razılaşmadır.

Ətraf mühitin mühafizəsinin qlobal səviyyəyə çıxarılmasının ən vacib kluminasiya nöqtəsi *ekoloji təhlükəsizliyi* təmin etməkdir. Ekoloji təhlükəsizlik haqqında AR Qanununun 1-ci maddəsinə əsasən, ekoloji təhlükəsizlik - insanın və cəmiyyətin həyati vacib maraqlarının, ətraf mühitin ona antropogen və təbii təsirlər nəticəsində yarada biləcəyi təhlükələrdən qorunmasının təmin edilməsidir (7). Ekoloji təhlükəsizlik geniş mənada qəbul olunmalı, beynəlxalq və milli təhlükəsizliyin tərkib hissəsi kimi qiymətləndirilməlidir. *Beynəlxalq təhlükəsizlik* – dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin azad inkişafı üçün əlverişli beynəlxalq şəraitin yaradılmasını şərtləndirən dünya qaydasıdır. *Ekoloji təhlükəsizlik* isə beynəlxalq təhlükəsizliyin mühüm tərkib hissəsi olaraq, ətraf mühitin və insanların həyati mənafelərinin təsərrüfat və d. fəaliyyətlərin mümkün mənfi təsirlərindən, təbii və texnogen xarakterli fövqəladə hadisələrdən və onların nəticələrindən mühafizə vəziyyətidir.

Ekoloji təhlükəsizlik milli təhlükəsizliyin də tərkib hissəsi hesab olunur. AR-in Milli təhlükəsizlik haqqında Qanununun 6.7.-ci maddəsində cəmiyyətin yaşayışı üçün təhlükəsiz ekoloji və texnoloji şəraitin yaradılması - AR-in ekoloji sahədə əsas milli maraqlarından biri kimi bəyan olunmuş; 7.10.1.-ci maddədə ekoloji tarazlığın pozulması və ekoloji vəziyyətin kəskin pisləşməsi; 7.10.2.-ci maddədə ekoloji cəhətdən zərərli texnologiyaların təhlükə yaradacaq miqyaslarda tətbiqi, təsərrüfat obyektlərinin təbii fəlakətlərə, texnogen xarakterli fövqəladə hadisələrə məruz qalma ehtimalı, epidemiya və epizootiyaların yayılması; 7.10.3.-cü maddədə su mənbələrinin, atmosferin və dəniz ətraf mühitinin təhlükəli miqyaslarda çirklənməsi; 7.10.4.-cü maddədə ekoloji mədəniyyət səviyyəsinin aşağı olması (15), o cümlədən AR-in 2007-ci il tarixli Milli təhlükəsizlik konsepsiyasının 3.11.-ci maddəsində sadalanan ekoloji problemlər (2) ölkənin milli təhlükəsizliyinə qarşı təhdidlər kimi təsbit olunmuşdur. Odur ki, hüquq ədəbiyyatında ifadə olunan "*ekoloji təhlükəsizlik sistemli xarakterə malikdir*" fikri (16. 30) düzgün yanaşma hesab olunmalıdır. Ona görə ki, cəmiyyətin sabit durumuna ekoloji baxımdan təhlükə yaradan amillər: sosial, iqtisadi, texnoloji, təsərrüfat, silahlı münaqişələr və s. faktorların qarşılıqlı əlaqəsi kontekstində nəzərdən keçirilməli və bu problemin həllinin optimal beynəlxalq hüquqi əsasları və mexanizmləri işlənib hazırlanmalıdır. Beynəlxalq hüquqşünas alim Turqay Hüseynovun qeyd etdiyi kimi ekoloji təhlükəsizliyin beynəlxalq hüquqi tənzimlənməsi dövrümüzün ekoloji çağırışlarına cavab olaraq öz tənzimləyici təsirini

nümayiş etdirən mürəkkəb, ardıcıl və dinamik inkişaf edən mexanizmdir və onun inkişafı həm xarici, həm də daxili amillərlə şərtləşən xüsusiyyətlərlə xarakterizə olunur (21. 52-53).

*Beləliklə,* ətraf mühitin mühafizəsi məsələsi beynəlxalq ekoloji siyasət konsepsiyasının diqqət mərkəzinə düşdükdən sonra onun yumşaq hüquq *(soft law)* istiqamətində tənzimlənməsinin əsası qoyulmuş və müəyyən müddət keçdikdən sonra isə qətnamələrdə, bəyənnamələrdə, proqramlarda ifadə olunan həmin "*ekoloji standartlar"*ın əksəriyyəti ya müqavilə qaydasında, ya da beynəlxalq hüquqi adət şəklində məcburi hüquq norması kimi tanınaraq BEH təşəkkül tapmasına töhfə vermişdir.

## III. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ İNSAN HÜQUQLARI

Bu gün ətraf mühitin mühafizəsi probleminə insan və təbiətin qarşılıqlı əlaqəsi, qarşılıqlı təsiri və ekoloji təhlükəsizliyin təmin olunmasının vacibliyi kontekstindən yanaşma daha məqbul addım hesab edilir. Səbəb isə ondan ibarətdir ki, ətraf mühit insanın həyat və sağlamlığının maddi əsasını təşkil edir və buna müvafiq olaraq hər bir şəxsin əlverişli ətraf mühitdə yaşamaq hüququ vardır. Hesab edirik ki, əlverişli ətraf mühitdə yaşamaq hüququ insanın, bütövlükdə isə cəmiyyətin ayrılmaz və immanent hüququdur və bu hüququn kobud surətdə pozulması beynəlxalq hüquqi öhdəlik baxımından dövlətin beynəlxalq hüquqi məsuliyyətini, təqsirli şəxslərin isə cinayət məsuliyyətini doğurmağa əsas verir. Odur ki, XX əsrin ikinci yarısından etibarən qlobal çağırışlara cavab olaraq əlverişli ətraf mühitdə yaşamaq hüququ da daxil olmaqla, ekoloji insan hüquqlarının hüquqi cəhətdən reqlamentasiyasına və inkişafına start verilmişdir.

Hüquq ədəbiyyatında "*kollektiv hüquq*" (11.164; 17.74) kimi tanınan əlverişli və ya sağlam ətraf mühitdə yaşamaq hüququnun beynəlxalq hüquqda maddiləşməsinin əsası yumşaq hüquq normalarına söykənir və onun beynəlxalq hüquq müstəvisinə çıxarılmasında *İnsanın ətraf mühit problemləri üzrə 1972-ci il Stokholm Bəyənnaməsinin* 1-ci və 21-ci prinsiplərinin rolu xüsusi qeyd edilməlidir. Bəyannamənin 1-ci Prinsipində vurğulanır ki, "insan, azadlıq, bərabərlik və müvafiq şəraitdə, ləyaqətli həyat və rifah halında yaşamağa imkan verən keyfiyyətli ətraf mühitdə yaşamaq hüququna malikdir və o, ətraf mühitin yaxşılaşdırılmasına və mühafizəsinə görə indiki və gələcək nəsillər qarşısında məsuliyyət daşıyır" (22). 21-ci Prinsipdə isə qeyd olunur ki: "BMT Nizamnaməsinə və beynəlxalq hüquq normalarına uyğun olaraq dövlətlər, ətraf mühitə dair siyasətlərinə müvafiq surətdə özlərinin təbii ehtiyatlarını istismar etməkdə müstəqil hüquqlara malikdirlər və öz yurisdiksiyaları və ya nəzarətləri daxilində fəaliyyətlərinin nəticəsində digər dövlətlərə və ya milli yurisdiksiya xaricində olan ərazilərə ekoloji zərər vurmamalarını təmin etmələ-

rinə görə məsuliyyət daşıyırlar (22).

Hesab edirik ki, Stokholm Bəyənnaməsinin hər iki prinsipi beynəlxalq hüquqda iki fundamental problemin *bərk hüquq normaları* əsasında tənzimlənməsinin zəruriliyinin ön plana çıxmasına zəmin yaratmışdır: *birincisi*, məhz ilk dəfə olaraq ətraf mühitin mühafizəsi və insan amilinin qarşılıqlı əlaqəsi *"əlverişli ətraf mühitdə yaşamaq hüququ"* adı altında bəşəri dəyər kimi beynəlxalq hüququn tənzimləmə təsirinin altına düşmüş, eyni zamanda, ətraf mühitin mühafizəsi, onun qorunması hər bir fərdin öhdəliyi və məsuliyyəti kimi müəyyən edilmiş; *ikincisi*, transsərhəd zərərə görə dövlətlərin məsuliyyətinin vacibliyi gündəmə gətirilmişdir. Hüquq ədəbiyyatında da Stokholm Bəyənnaməsinin milli və beynəlxalq səviyyədə ətraf mühitin mühafizəsinə dair problemlərin öyrənilməsinə zəmin yaratdığı, bu sahədə hüquq normalarının təşəkkül tapmasına, xüsusən milli konstitusiyalarda insanın ətraf mühitə dair hüquqlarının dairəsinin genişlənməsinə təsir etməsi xüsusi vurğulanır (12.233; 33.89).

Sağlam ətraf mühitdə yaşamaq hüququ AR Konstitusiyasının 39-cu maddəsində də öz təsdiqini tapıb. Həmin maddədə vurğulanır ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır; hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır; heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz; dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir (1.15). Konstitusiyanın 39-cu maddənin məzmunundan aydın olur ki, həmin maddə şəxsin üç müstəqil, lakin bir-birilə sıx əlaqə təşkil edən immanent hüquqlarını ehtiva edir: a) sağlam ətraf mühitdə yaşamaq; b) ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq; c) ekoloji hüquqpozmalarla əlaqədar sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq. Təbii ki, bu hüququn Konstitusiyada təsbit olması ölkəmizin ətraf mühitin mühafizəsinə və insan hüquqlarının əhəmiyyətinə prioritet məqsəd və vəzifə kimi yanaşması ilə əlaqədardır.

Əlverişli və yaxud sağlam ətraf mühitdə yaşamaq hüququna dair müddəaların sonrakı inkişafında BMT Baş Məclisinin 1982-ci il tarixli Ümumdünya təbiəti mühafizə Xartiyasının (5, 20, 23-cü mad) (19), Yerli xalqların hüquqları haqqında BMT-nin 2007-ci il Bəyənnaməsinin (29-cu mad) (23), BMT-nin 2015-ci il tarixli 2030-cu ilədək "*Dayanaqlı inkişafın məqsədləri*"nə dair Qətnaməsinin və d. deklarativ xarakterli aktların rolu danılmazdır. Məsələn, 2015-ci ildə beynəlxalq səviyyədə dayanaqlı inkişaf sahəsində razılaşdırılmış məqsədlər bu və ya digər dərəcədə ekoloji problemlərin aradan qaldırılması və əlverişli, sağlam ətraf mühitin təmin olunması ilə əlaqələndirilir. Həmin sənədin 8.4.-cü məqsədində dayanaqlı iqtisadi inkişa-

fın artımının təmin olunması məsələsi ətraf mühitə hər hansı zərərin vurulmaması, ətraf mühitin deqradasiyaya məruz qalmaması kimi tutarlı meyarlarla şərtləndirilir. Lakin bu hüquq indinin özünə kimi hər hansı universal xarakterli beynəlxalq sənəddə təsbit olunmayıb.

Əlverişli ətraf mühit hüququnun təşəkkül tapması məsələsinə bir qədər də tarixilik aspektindən nəzər yetirsək, onda bu hüququn 1948-ci il İnsan Hüquqları haqqında Ümumi Bəyənnamədən təşəkkül tapdığının şahidi ola bilərik. Bəyənnamənin 25-ci maddəsini ətraflı nəzərdən keçirdikdə aydın olur ki, bu sənəddə insan hüquqları insanın özünün və ailəsinin sağlamlığı və rifahı üçün layiqli həyat səviyyəsinə nail olmaq hüququ kimi bəyan edilib (6. 9). Burada nəzərdən keçirilən ekoloji hüquqla həmin sənədin 3-cü maddəsində təsbit olunan yaşamaq hüququ arasında əlaqəni görə bilərik (26.104).

1992-ci il *Ətraf mühit və inkişaf üzrə* Rio-de-Janeyro Bəyənnaməsində ətraf mühit və ekoloji insan hüquqlarının qarşılıqlı əlaqəsi və təmini birbirilə qırılmaz vəhdət təşkil edən üç məqsəd: *birincisi,* əlverişli beynəlxalq iqtisadi sistemin yaradılması əsasında beynəlxalq əməkdaşlığı inkişaf etdirmək; *ikincisi,* bütün ölkələrdə iqtisadi artıma və dayanaqlı inkişafa nail olmaq; *üçüncüsü,* beynəlxalq konsensusa əsaslanmaqla, insanın sağlam həyatını təmin etmək naminə transsərhəd və qlobal ekoloji problemlərin həllinə yönəlik tədbirlər işləyib hazırlamaq və onu həyata keçirmək - üzərində ifadə olunub. Məhz bunun nəticəsidir ki, hüquq ədəbiyyatında Rio Bəyənnaməsinin tövsiyə xarakterli beynəlxalq sənəd olmasına baxmayaraq, onun müddəalarının beynəlxalq hüquqi adət norması statusu əldə etməsi haqqında fikirlər səsləndirilir (43. 39).

Beynəlxalq Təbiəti Mühafizə İttifaqının 26-29 aprel 2016-cı il tarixlərində Rio-de-Janeyroda keçirilən ekologiya hüququ üzrə Ümumdünya Konqresində qəbul edilmiş ekoloji hüquq qaydasına dair Ümumdünya Bəyənnaməsinin ətraf mühit və ekoloji insan hüquqlarının qarşılıqlı əlaqəsinə verdiyi töhfə də xüsusi qeyd edilməlidir. Bəyənnamədə vurğulanır ki, bəşəriyyət təbiətdə mövcuddur və onun bütün həyatı biosferin bütövlüyündən və ekoloji sistemin qarşılıqlı asılılığından asılıdır (20). Həmin sənəddə təsbit olunan ekoloji hüquq qaydasının bir sıra prinsiplərini: məsələn, təbiəti qorumaq vəzifəsi, təbiət hüququ və təbiət hüquqları, ətraf mühit hüququ, İn Dubio Pro Natura – təbiətin xeyrinə şübhə olduqda, mülkiyyətin ekoloji funksiyaları və d. əlverişli ətraf mühit hüququnun təmin olunmasının əsasları kimi qəbul etmək olar, baxmayaraq ki, həmin sənəd formal-hüquqi baxımdan dövlətlər tərəfindən razılaşdırılmamışdır. Bununla belə, sözügedən Bəyənnamənin müddəaları həm beynəlxalq, həm də milli səviyyədə hüquqi tənzimlənmənin formalaşması zamanı nəzərə alına bilər. Buna nümunə olaraq Bəyənnamənin "təbiəti qorumaq vəzifəsi" adlanan 1-ci prinsipinə müraciət edək. Qeyd olunan prinsipin tələbi ondan ibarətdir ki, hər bir dövlət, ictimai və özəl təşkilat, ha-

belə vətəndaşlar cəmiyyət üçün dəyərli olub-olmamasından asılı olmayaraq təbiətin əlverişli vəziyyətini qorumağa və saxlamağa, habelə ondan istifadə və istismarını məhdudlaşdırmağa borcludurlar (20).

Bu gün müasir dünya, insan cəmiyyəti ekoloji fəlakətlərin mümkün təhlükələri və təhdidləri ilə qarşı-qarşıya dayanıb. Həyata keçirilən qeyri-rasional iqtisadi fəaliyyətlərin, silahlı münaqişələrin dağıdıcı nəticələri qlobal ekoloji fəsadlara və problemlərə yol açıb. Əfsuslar olsun ki, istər beynəlxalq hüquq, istərsə də milli hüquq müstəvisində ətraf mühitə insanın antropogen fəaliyyəti nəticəsində dəyən maddi, həmçinin mənəvi zərərin ödənilməsinin ekvivalentliyinə nail olmaq imkanının ümumi qəbul olunan kriteriyaları işlənib hazırlanmayıb. Hal-hazırda həlli vacib olan məsələlər sırasında ekosidin müstəqil beynəlxalq cinayət kimi tanınması, bu cinayətə görə fiziki şəxslərin beynəlxalq və yaxud universal yurisdiksiya müstəvisində cəzalandırılmasının imkanları, hüquqi şəxslərin hansı şərtlər daxilində məsuliyyətə cəlb olunması və d. problemlər öz növbələrini gözləməkdə davam edirlər. Hesab edirik ki, Bəyənnamənin bu prinsipi beynəlxalq birliyi ətraf mühitin qorunması sahəsində bütün subyektlər üçün məcburi olan hüquq normalarının yaradılmasına sövq edə bilər. Təbii ki, bunun üçün gələcək nəsillərin rifahı naminə *"siyasi iradə"*nin işə düşməsinə ehtiyac vardır.

Əlverişli ətraf mühit hüququ universal xarakterli konvensiyalarda müstəqil hüquq kimi nəzərdə tutulmasa da, lakin bu hüququn digər insan hüquqları ilə dialektik əlaqəsi inkar edilmir. Məsələn, insan hüquqları sahəsində dövlətlər üçün müvafiq öhdəliklər müəyyən edən beynəlxalq hüquqi tənzimləmə alətlərindən biri *-1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktdır.* Bu beynəlxalq hüquq sənədi *özü icra olunmayan* ("non-self- executing") xarakterə malik olsa da, lakin onun 11-ci maddəsində vurğulanır ki, dövlətlər hər bir şəxsin özünün və ailəsinin kifayət qədər qidalanmasını, geyimini, yaşayış yerini və həyat şəraitinin daimi yaxşılaşmasını əhatə edən münasib həyat səviyyəsi hüququnu tanıyırlar və bu hüququn həyata keçirilməsi üçün müvafiq tədbirlər görəcəklər (6.15). Təbii ki, bu tədbirlərdən biri də, sağlam və ya əlverişli ətraf mühitin təmin edilməsi üzrə tədbirlərdir. 11-ci maddədə "*hər bir şəxsin özünün və ailəsinin həyat şəraitinin davamlı olaraq yaxşılaşdırılması hüququnun*" bəyan edilməsi bizə belə bir fikir söyləməyə əsas verir ki, bu maddə nəinki, əlverişli ətraf mühit hüququnu istisna etmir, həm də onu bu cür yaxşılaşdırılmanın mümkünlüyü ilə əlaqələndirir.

1998-ci ildə Danimarkanın Orxus şəhərində imzalanan "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət mühakiməsinin açıq keçirilməsi haqqında" BMT Konvensiyasının (9) qəbulu insan hüquqları ilə ətraf mühitin qırılmaz vəhdət təşkil etdiyini bir daha təsdiqləyərək "*ətraf mühitin adekvat mühafizəsinin*"

yeni bir mərhələyə qədəm qoyduğunu bəyan etdi. Konvensiyanın 1-ci maddəsində indiki və gələcək nəsillərin hər bir üzvünün sağlamlığı və rifahı üçün əlverişli ətraf mühitdə yaşamaq hüququnun müdafiəsinə kömək məqsədi ilə ictimaiyyətin və aidiyyatı təşkilatların nümayəndələrinin iştirakını gücləndirmək bir məqsəd olaraq təsbit edilib.

Universal səviyyə ilə müqayisədə, insan hüquqlarının regional müqavilə sistemi ətraf mühit və insan hüquqlarının qarşılıqlı vəhdətinə konvension məqsədləri baxımından bir qədər fərqli yanaşma sərgiləyir. Məsələn, 1981-ci il İnsan və Xalqların hüquqlarına dair Afrika Xartiyasının 24-cü maddəsində qeyd olunur ki, bütün xalqlar onların əlverişli inkişafı üçün ətraf mühitin qənaətbəxş səviyyəsi hüququna malikdir (30.741). Xartiyada bu hüquq insan hüquqlarının müdafiəsinin Afrika sisteminin spesifikliyi nəzərə alınmaqla xalqlar hüququ kimi nəzərdən keçirilir. İqtisadi, sosial və mədəni hüquqlar sahəsində insan hüquqları haqqında Amerika Konvensiyasına 1988-ci il Əlavə Protokolun 11-ci maddəsi (34.15) hər bir fərdin sağlam ətraf mühitdə yaşamaq hüququnu bəyan etməklə yanaşı, eyni zamanda ətraf mühitin mühafizəsini, saxlanılması və yaxşılaşdırılmasına dəstək verməni dövlətin öhdəliyi kimi təsbit edir. Qeyd edək ki, Protokolda sağlam ətraf mühitdə yaşamaq hüququ sosial-iqtisadi hüquqlar kateqoriyasına aid edilmişdir.

1950-ci il Avropa İnsan Hüquqları Konvensiyasında ekoloji insan hüquqlarına, daha konkret şəkildə əlverişli ətraf mühit hüququna dair maddəyə rast gəlinməsə də. lakin Avropa İnsan Hüquqları Məhkəməsi bu hüququ fərdi hüquq kimi Konvensiyanın 2-ci (*yaşamaq hüququ),* 8-ci *(şəxsi və ailə həyatına hörmət hüququ)* və 1 №-li Protokolun 1-ci maddələrinin prizmasından təfsir edərək müvafiq qərarlar qəbul etmişdir. Məhkəmənin 1978-ci il *Tyrer v. the United Kingdom* (35), 1998-ci il *Guerra and others v. İtaly* (36), 2003-cü il *Hatton and others v. United Kingdom* (37), 2004-cü il *Moreno Gomez v. Spain* (38), 2011-ci il *Grimkovskaya v. Ukraine* (39) işlərindən aydın olur ki, Məhkəmənin rəyinə görə, Konvensiyanın 8-ci maddəsinə müraciət imkanı ətraf mühitin pisləşməsinin ərizəçinin sağlamlığına təhlükə törətməsindən asılıdır. Məsələn, 21 iyul 2011-ci il tarixli *Qrimkovskaya Ukraynaya qarşı iş üzrə* qərarında Strasburq Məhkəməsi qeyd edib ki, havanın çirklənməsi, ərizəçinin evinin yaxınlığından keçən avtomobil yolu üzrə nəqliyyat axınından yaranan səs və vibrasiya onun və ailə üzvlərinin sağlamlığının pisləşməsinə səbəb olub (39).

Strasburq Məhkəməsinin yuxarıda vurğulanan konkret işlər üzrə qəbul etdiyi qərarlarının müəyyənliyindən belə bir nəticəyə gəlmək olur ki, əlverişli ətraf mühit hüququnun pozulması yalnız o halda Konvensiyanın 8-ci maddəsinə əsaslanmaqla pozuntu kimi qiymətləndirilə bilər ki, *birincisi,* pozuntunun səbəbi məhz ətraf mühitin pisləşməsi ilə bağlı olmalıdır; *ikincisi,* ətraf mühitin vəziyyətinin pisləşməsi ərizəçinin və onun ailəsnin yaşayışına

və ya şəxsi həyatına əhəmiyyətli təsir göstərmiş olsun.

Məhkəmənin 2015-ci il tarixli *Özəl və başqaları Türkiyəyə qarşı işi üzrə Qərarında* isə (40) ekoloji hüquqların pozulması mümkünlüyü və onların qiymətləndirilməsi 1950-ci il Konvensiyasının yaşamaq hüququnu bəyan edən 2-ci maddəsinin kontekstində təfsir edilmişdir. Bu onunla izah oluna bilər ki, uyğun olmayan ekoloji şərait, məsələn, istənilən təhlükəli fəaliyyət növünün həyata keçirilməsi insanın həyatı üçün təhlükə yarada bilər. *Kolyadenko və başqaları Rusiyaya qarşı 2012-ci il* tarixli Qərarında (41) isə Məhkəmə əlverişli ətraf mühit hüququnun pozulmasını ərizəçinin 1950-ci il Konvensiyasının 1 №-li Protokolunun 1-ci maddəsində təsbit olunan əmlak hüququndan istifadə hüququnun pozulması kontekstində təfsir etmişdir.

Yuxarıda qeyd olunanların yekunu olaraq belə bir nəticəyə gələ bilərik ki, ətraf mühitin mühafizəsi prinsip etibarı ilə elə insanın həyat və sağlamlığının qorunması deməkdir. Bu qarşılıqlı vəhdətin və asılılığın qorunması beynəlxalq birliyin prioritet vəzifəsi olmalıdır. Ekoloji insan hüquqlarının, xüsusən də əlverişli və yaxud sağlam ətraf mühitdə yaşamaq hüququnun beynəlxalq hüquq müstəvisində reqlamentasiyası ona görə vacib məqsədlərdən biri hesab olunmalıdır ki, təbiət və onun resursları insanlığın maddi əsasını təşkil edir və ona olan qeyri-rasional münasibət elə insanlığın məhvi deməkdir. Odur ki, ətraf mühitin mühafizəsinin zəruriliyinə *antroposentrik* - yəni insan və təbiətin qarşılıqlı münasibətlərində insanın rolunun mütləqləşdirilməsi nöqteyi-nəzərindən deyil, *biosentrik* və *ekosentrik* sintezdən yanaşılmalıdır.

Beynəlxalq hüquqda ətraf mühit və insan hüquqlarının qlobal tənzimləmə müstəvisinə çıxarılması həmin dəyərlərə qarşı edilən pozuntuların qarşısının alınması üçün "*hüquqi məsuliyyət rejiminin*" müəyyənləşdirilməsini də tələb edir. Hüquqi məsuliyyət rejimi isə dövlətlərin, hüquqi şəxslərin və fərdlərin qeyri-qanuni əməllərinin qarşısının alınmasının bütün mümkün hədlərini özündə əhatə etməlidir. Bu tələbin başqa alternativi yoxdur.

*Beləliklə,* dövlətlər ətraf mühitin mühafizəsinə dair üzərlərinə götürdükləri beynəlxalq öhdəliklərini lazımınca yerinə yetirmədiklərinə və yaxud pozduqlarına görə beynəlxalq hüquqi (siyasi və maddi), fiziki şəxslər cinayət hüquqi, xüsusi şəxslər isə mülki hüquqi məsuliyyət daşımalıdırlar. Əfsuslar olsun ki, bu gün ətraf mühitin mühafizəsi üzrə hüquqi məsuliyyət rejiminin vacibliyini şərtləndirən beynəlxalq normaların implementasiya prosesi hal-hazırda aşağıdakı problemlərlə müşaiyət olunur: a) bu sahədə beynəlxalq normaların çoxluğu, müxtəlifliyi və intensiv dinamikası; b) implementasiyanın optimal üsullarını seçməkdə çətinliklər; c) implementasiya prosesində hüquq və siyasət arasında balansı təmin etmək problemi.

# ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Hüquq Yayın Evi. - 2018. - 92 s.
2. Azərbaycan Respublikasının Milli təhlükəsizlik konsepsiyası: https://e-qanun.az/framework/13373
3. Beynəlxalq hüquq. Dərslik. Ümumi hissə. - Bakı: Ləman Nəşriyyat Poliqrafiya MMC. - 2018, - 420 s.
4. Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasına dair Kioto Protokolu: https://e-qanun.az/framework/339
5. Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyası ilə bağlı 2015-ci il Paris Sazişi: https://e-qanun.az/framework/34278
6. Beynəlxalq sənədlər toplusu (I cild). Azərb. dilində. – Bakı: Qanun, - 2008, - 960 s.
7. Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu: https://e-qanun.-az/framework/3851
8. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu: https: //e-qanun.az/framework/3852
9. Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət mühakiməsinin açıq keçirilməsi haqqında BMT Konvensiyası: https://eco.gov.az/frq-content/pluginspages_v1/entry/20190420145932573806OO. pdf
10. Gündüz A. Milletlerarası hukuk. Konu anlatımı, Temel belgeler. Örnek karalar. 6 Baskı. İstanbul. Beta basın. - 2013, - 815 s.
11. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. - Bakı: Qanun, - 2012. - 368 s.
12. Hanter D, Salzman C, Zealke D. Ətraf mühit haqqında beynəlxalq hüquq və siyasət. İkinci nəşr. – Bakı: Adiloğlu, - 2008. - 1720 s.
13. Xəlilov T.A, Zeynalova M.Ə. Qlobal ekoloji problemləri. Ali məktəblər üçün dərs vəsaiti. – Bakı: MBM, - 2013, - 212 s.
14. Məmmədov Q, Məmmədova S, Hüseynov E, Həşimov A. İnsan ekologiyası (Antropoekologiya). Ali məktəblər üçün dərslik. – Bakı: OKA Ofset. - 2015, - 734 s.
15. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu: https://e-qanun.-az/framework/5455
16. Məhərrəmov A.A. Ekoloji təhlükəsizliyin beynəlxalq və dövlətdaxili hüquqi aspektləri (nəzəri və praktiki problemlər). – Bakı, - 2010, - 412 s.
17. Süleymanova E.T, Əliyev Z.H. İnsan hüquqları (mühazirələr toplusu). Dərs vəsaiti. – Bakı: Bakı Universiteti nəşriyyatı. - 2014. - 360 s.
18. Şafak E, Tabur Y. Küresel iklim krizi ile mücadelede uluslararası hukukun rolü ve ekokrim suçu // Akdeniz Üniversitesi Hukuk fakültesi Dergisi. Cilt 13, sayı 1, 2023, s.83-114 https://dergipark.org.tr/tr/download/article-file/2693564 (müraciət tarixi: 11.08.2024)
19. Всемирная хартия природы 28 октября 1982 г. https://www.un.org/ru/docu men ts/-decl_conv/conventions/charter_for_nature.shtml
20. Всемирная декларация Международного союза охраны природы: https://iucn.org-/sites/default/files/2022-10/worlddecenvirlawmarch2017.russian_0.pdf
21. Гусейнов Т.И. Международные и национально-правовые аспекты экологической безопасности. - Баку: Bakı Universiteti, - 2017. - 348 с.
22. Декларация Конференции Объединённых Наций по проблемам окружающей человека среды: https://www.un.org/ru/documents/decl_conv/declarations/decla rathenv.s html\
23. Декларация Организация Объединённых Наций о правах коренных народов 2007 г: https://www.un.org/ru/documents/decl_conv/declarations/indigenous rights.shtml
24. Ермолов Н.Г. Модели экологической политики: генезис и эволюция // Теория и практика общественного развития. - № 3, - 2012, - с.245-249 https://cyberleninka.ru/-article/n/modeli-ekologicheskoy-politiki-genezis-i-evolyutsiya (müraciət tarixi: 13.08.2024)
25. Защита прав человека во время вооруженных конфликтов и постконфликтных ситуациях: международно-правовой аспект. Отв. ред. У. Маммадов. Т. Гусейнов. –

Баку: Институт права и прав человека. - 2023. - 1014 с.
26. Игнатович А.И. Право на благоприятную окружающую среду и его трактовка в международных документах и практике контрольных органов // Молодежный сборник научных статей «Научные стремления». Право. Выпуск 22, 2017, с.104-108. https://cyberleninka.ru/article/n/pravo-na-blagopriyatnuyu-ok ru zhayuschuyu-sredu-i-ego-traktovka-v-mezhdunarodnyh-dokumentah-i-praktike-kontrolnyh-organov (müraciət tarixi: 19. 08.2024)
27. Кукушкина А.В. Международно-правовая квалификация бомбардировок авиацией НАТО территории Югославии и их экологические последствия // Вестник Томского государственного университета. - № 436. - 2018, - с. 237–242
28. Международное право: Учебник / Отв. ред. д.ю.н., проф. С.А.Егоров. 5-е изд., перераб и доп. - Москва: Статут, - 2014. - 1087 с.
29. Международное право. Особенная часть: Учебник для вузов / Отв. ред. проф. Р.М. Валеев и проф. Г.И.Курдюков. - Москва: Статут, - 2010. - 624 с.
30. Международные акты о правах человека. Сборник документов. - Москва: НОРМА-ИНФРА. - 2000. - 704 с.
31. Повестка дня в области устойчивого развития на период до 2030 года: https://unctad.org/system/files/official-document/ares70d1_ru.pdf
32. Харитонова Н.И. Экогеополитика как новый концепт в геополитической парадигме международных отношений //Государственное управление. Электронный вестник. Выпуск № 86. Июнь 2021, с. 178-199 https://cyber leninka. ru/ ar ti cle /n/ekogeopolitika-kak-novyy-kontsept-v-geopoliticheskoy-paradigme-mezhdunarod nyh-otnosheniy/viewer (müraciət tarixi: 11.08.2024)
33. Цверианашвили И.А. Стокгольмская конференция 1972 г. и ее роль в становлении международного экологического сотрудничества // Вестник Нижегородского университета им. Н.И.Лобачевского, № 1, 2016, с. 89-94 https://cyber lenin ka.ru/article-/n/stokgolmskaya-konferentsiya-1972-g-i-eyo-rol-v-stanovleniimezhdu narodnogo ekologicheskogo-sotrudnichestva/viewer (müraciət tarixi: 18. 08. 2024)
34. Additional Protocol to the American convention on human rights in the area of economic, social and cultural rights. Protocol of San Salvador: https: //www. oas. org /en/sare/social-inclusion/protocol-ssv/docs/protocol-san-salvador-en.pdf
35. Case of Tyrer v. the United Kingdom 25 april 1978: https://hudoc.echr.coe.int/fre#{%-22itemid%22:[%22001-57587%22]}
36. Case of Guerra and others v. İtaly 19 february 1998: https://hudoc.echr.coe.int /eng#-{%22itemid%22:[%22001-58135%22]}
37. Case of Hatton and others v. the United Kingdom 8 july 2003: https:// hudoc .echr. coe.-int/Eng#{%22itemid%22:[%22001-61188%22]}
38. Case of Moreno Gomez v. Spain 16 november 2004: https://hudoc.echr.coe.int/ eng#-{%22itemid%22:[%22001-67478%22]}
39. Case of Grimkovskaya v. Ukraine 21 july 2011: https://hudoc.echr.coe.int /eng# {%22-itemid%22:[%22001-105746%22]}
40. Case of M. Özel and others v. Turkey 17 november 2015 https://hudoc.echr.coe. int/eng-#{%22itemid%22:[%22001-158803%22]}
41. Case of Kolyadenko and others v. Russia 28 februare 2012: https://hudoc.echr. coe.int-/eng#{%22itemid%22:[%22001-109283%22]}
42. Dixon M, McCorquodale R, Williams S. Cases and Materials on International Law. Oxford. Oxford University Press. 2016. 731 p.
43. Paddock L.C, Glickman R.L, Bryner N.S. Decision making in environmental law UK; Northampton, MA, USA: Edward Elgar Publishing, 2016. 486 p.
44. Resolution 2085 (2016) Inhabitants of frontier regions of Azerbaijan are deliberately deprived of water (Text adopted by the Assembly on 26 January 2016 (3rd Sitting). //

URL: https://pace.coe.int/en/files/22429/html
45. United Nations Conference on Environment an Development, Rio de Janeiro, Brazil, 3-14 June 1992: https://www.un.org/en/conferences/environment/rio1992
46. United Nations Framework Convention on Climate Change (with annexes). Concludet at New York on 9 May 1992: https://treaties. un.org/doc/ source/ Recent Texts /un fccc_eng.pdf

## ЗАЩИТА ОКРУЖАЮЩЕЙ СРЕДЫ – КАК НЕОБХОДИМОЕ УСЛОВИЕ МЕЖДУНАРОДНО-ПРАВОВЫХ ОБЯЗАТЕЛЬСТВ ГОСУДАРСТВ: РАЗВИТИЕ ОТ МЯГКОГО ПРАВА К ЖЕСТОКОМУ ПРАВУ

**Р.К.МАМЕДОВ**

### РЕЗЮМЕ

Основная цель исследования – раскрыть сущность и значение института юридической ответственности, выступающего необходимым условием и требованием международно-правовых обязательств государств в области охраны окружающей среды, путем комплексного анализа рекомендательных норм (мягкого права), международных договоров, общепризнанных принципов и норм международного права, правовых стандартов, правовых актов международных организаций, актов международных конференций, односторонних актов, порождающих международные обязательства.

В статье отмечается, что охрана окружающей среды и обеспечение экологической безопасности напрямую связаны с правом человека на жизнь и здоровье. Другими словами, охрана окружающей среды и обеспечение экологической безопасности посути означают охрану жизни и здоровья человека. Обеспечение этого взаимного единства и взаимозависимости должно стать приоритетной задачей международного сообщества. Необходимость защиты окружающей среды следует рассматривать с точки зрения биоцентрического и экоцентрического синтеза, а не с антропоцентрической точки зрения, то есть с точки зрения абсолютизации роли человека во взаимоотношениях человека и природы. Эта взаимосвязь и в зависимость также требуют определения режима правовой ответственности. Ответственность за экологические правонарушения в принципе порождает международно-правовую ответственность с точки зрения несоблюдения международных обязательств, уголовную ответственность с учетом формы вины, гражданско-правовую ответственность в зависимости от размера и характера причиненного ущерба.

Процесс имплементации международных норм, определяющих важность режима юридической ответственности за охрану окружающей среды, в настоящее время сопровождается следующими проблемами: а) большое количество, многообразие и динамичное развитие соответствующих международных норм в этой области; б) выбор оптимальных методов реализации; в) обеспечение баланса между правом и политикой в процессе реализация.

**Ключевые слова:** охрана окружающей среды, экологическая безопасность, право на благоприятную окружающую среду, концепция международной экологической политики, международное право, цели устойчивого развития, международно-правовая ответственность, Стокгольмская декларация по проблемам окружающей среды 1972 г, Рамочная конвенция об изменении климата 1992 г, уголовная ответственность, гражданско-правовая ответственность, агрессия, экологические стандарты.

## ENVIRONMENTAL PROTECTION -AS A NECESSARY CONDITION FOR THE INTERNATIONAL LEGAL OBLIGATIONS OF STATES: DEVELOPMENT FROM SOFT LAW TO HARD LAW

**R.K.MAMMADOV**

### SUMMARY

The main objective of the study is to reveal the essence and sig nificance of the institution of legal liability, which is a necessary condition and reguirement of international legal oblications of states in the field of environmental protection, through a comprehensive analysis of recommendatory norms (soft law), international treaties, generally recognized principles and norms of international law, legal standards, legal acts of international organizations, acts of international conferences, unilateral acts that give rise to international obligations.

The article notes that environmental protection and ensuring environmental safety are directly related to the human right to life and health. In other words, environmental protection and ensuring environmental safety essentially mean protecting human life and health. Ensuring this mutual unity and interdependence should a priority fask for the international community. The need to protect the environment should be considered from the point of view of biocentric and ecocentric synthesis, and not from an anthropocentric point of view, that is, from the point view of the obsolutization of the role of man in the relationship between man and nature. This interrelation and dependence also reguire the definition of a rejime of legal responsibility. Responsibility for environmental violations in principle gives rise to international legal liability in terms of non-compliance with international obligations, criminal liability taking into account the from of guilt, and civil liability depending on the size and nature if the damage caused.

The process of implementing international norms that determine the importance of the rejime of legal responsibility for environmental protection is currently accompanied by the following problems: a) the large number, diversity and dynamic development of relevant international norms in this area; b) the choice of optimal methods of implementation; c) ensuring a balance between law and policy in the implementation process.

**Key words:** environmental protection, environmental safety, right to a favorable environment, concept of international environmental policy, international law, sustainable development goals, international legal responsibility, Stockholm declaration on the environment, 1972, Framework Convention on climate change, 1992, criminal libility, civil libility, aggression, environmental standards.

# MÜNDƏRİCAT

## HÜQUQ

**Səmədova Ş.T.**
Süni intellekt və cinayət hüququ: məsuliyyət problemləri ............................5
**Seykenov K.K., Samatuli B.A.**
Jeti jarği – Qazaxıstan hüquq tarixini formalaşdıran
Qazax xanlığının qanunlar toplusu ...............................................................21
**İsmayılov X.C.**
Azərbaycanda konstitusiyaçılığın tarixi-hüquqi təkamülünün bəzi
aspektləri (XX əsrin 50-60-cı illəri) ..............................................................34
**Məmmədov R.K.**
Ətraf mühitin mühafizəsi – dövlətlərin beynəlxalq hüquqi öhdəliklərinin
zəruri şərti kimi: yumşaq hüquqdan (soft law) bərk hüquqa (hard law)
doğru inkişaf..................................................................................................55
**Nağızadə E.**
Kiberterrorçuluq – terrorçuluğun yeni forması kimi: anlayışı,
ictimai təhlükəliliyi, cinayət-hüquqi vasitələrlə mübarizə məsələləri ...........75
**Səmədov M.N.**
İnsan hüquqlarının hüquqi təminetmə üsulları ..............................................89

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ İQTİSADİYYAT

**Quliyeva G.M.**
Türk dövlətləri arasında Azərbaycan: birləşdirici güc və yeni rolu...............102

## SOSİOLOGİYA

**Mikayılova N.E.**
Müasir cəmiyyətin mənəvi əsasları haqqında................................................114

## PEDAQOGİKA

**Qasımova L.N.**
Etnopedaqogikanın tərkib hissələrindən biri olan dastanlarda
tərbiyə məsələləri..........................................................................................128

## СОДЕРЖАНИЕ

### ПРАВО

**Самедова Ш.Т.**
Искусственный интеллект и уголовное право:
вопросы ответственности ........................................................................5
**Сейтенов К.К., Бектен А.С.**
Жеті жарғы – свод законов казахского ханства,
формирующий историю права Казахстана ..............................................21
**Исмайлов Х.Дж.**
Некоторые аспекты историко-правовой эволюции
конституционализма в Азербайджане (50-60-е годы XX века) ...............34
**Мамедов Р.К.**
Защита окружающей среды – как необходимое условие
международно-правовых обязательств государств:
развитие от мягкого права к жестокому праву ........................................55
**Нагизаде Э.**
Кибертерроризм-как новая форма терроризма: понятие,
общественная опасность, вопросы борьбы уголовно-правовыми
средствами....................................................................................................75
**Самедов М.Н.**
Правовые способы обеспечения прав человека........................................89

### МЕЖДУНАРОДНЫЕ ОТНОЕНИЯ И ЭКОНОМИКА

**Гулиева Г.М.**
Азербайджан среди тюркских государств:
объединяющая сила и ее новая роль.........................................................102

### СОЦИОЛОГИЯ

**Микаилова Н.Э.**
О духовных основах современного общества ..........................................114

### ПЕДАГОГИКА

**Гасимова Л.Н.**
Провещательная проблематика в посланиях как компонент
этнопедагогики ...........................................................................................128

# CONTENTS

## LAW

**Samadova Sh.T.**
Artificial intelligence and criminal law: responsibility issues........................5
**Seitenov K.K., Bekten A.S.**
Zheti zhargy – code of laws of the Kazakh khanate shaping
the history of the law of Kazakhstan ..............................................................21
**Ismayilov Kh.J.**
Some aspects of the historical and legal evolution
of constitutionalism in Azerbaijan (50-60s of the 20th century)....................34
**Mammadov R.K.**
Environmental protection -as a necessary condition for the international
legal obligations of states: development from soft law to hard law ...............55
**Nagizade E.**
Cyberterrorism as a new form of terrorism: concept, public danger,
issues of combating criminal law means ........................................................75
**Samadov M.N.**
Legal methods for ensuring human rights ......................................................89

## POLITICAL SCIENCE AND ECONOMY

**Quliyeva G.M.**
Azerbaijan among the turkic states: a unifying force and its new role...........102

## SOCIOLOGY

**Mikayilova N.E.**
On the moral foundations of modern society .................................................114

## PEDAGOGY

**Gasimova L.N.**
Educational issues in epistles, as a component of ethnopedagogy .................128

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 07.05.2021-ci il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunur, disklər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin əlavə 4.1 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - Bakı: Azərnəşr, - 1994. - 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. - Bakı: Hüquq ədəbiyyatı, - 1999. - 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: [7 cilddə], - Bakı: Elm, - 2000. IV c., - 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2001. № 3. - s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. - Bakı: Nurlan, - 2003. - s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. dis. - Bakı, 2003. - 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi // «Ədəbiyyat və incəsənət» qəz., - Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siyahı №2, iş №26, vərəq.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

Redaktoru: ***Məryəm Qədimova***

Korrektoru: ***Solmaz Babaşova***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

Çapa imzalanmışdır: 09.10.2025
Formatı: 70x100 1/16. Həcmi 9,0 ç.v. Sayı 100.
Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bduneshrevi@bsu.edu.az
www.bsu.edu.az